# AZƏRBAYCAN JURNALİSTLƏRİNİN PEŞƏ DAVRANIŞI QAYDALARI

# CODE OF PROFESSIONAL ETHICS FOR JOURNALISTS OF AZERBAIJAN

MŞ
Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

This document has been revised from a gender equality perspective within the Council of Europe Project “Gender equality and media freedom in Azerbaijan” and this publication has been printed with the support of the same project. The views expressed herein can in no way be taken to reflect the official opinion of the Council of Europe.

Bu sənəd Avropa Şurasının “Azərbaycanda gender bərabərliyi və media azadlığı” layihəsi çərçivəsində gender bərabərliyi perspektivindən yenilənmişdir və bu nəşr həmin layihənin dəstəyi ilə çap olunur. Burada ifadə olunan fikirlər heç bir halda Avropa Şurasının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

# AZƏRBAYCAN JURNALİSTLƏRİNİN PEŞƏ DAVRANIŞI QAYDALARI

## PRİNSİP 1: Həqiqətə xidmət, dəqiqlik və obyektivlik

1.1 Jurnalistikanın ali məqsədi həqiqəti yaymaqdır, obyektivlik isə əsas peşəkarlıq meyarıdır.

1.2 Jurnalist hazırladığı yazıda tənqid obyektinin mövqeyini öyrənib bildirməlidir. Bu, mümkün olmadıqda, tənqid obyekti tələb edərsə, öz fikirlərini çatdırmağa çox qısa vaxtda ona şərait yaradılmalıdır. Plüralizm prinsipinə əməl edilməlidir.

1.3 Yazıda şərhlər elə şəkildə ifadə edilməlidir ki, oxucu onu xəbərdən, faktdan ayıra bilsin, bunun məhz jurnalistin mövqeyi olduğunu anlasın.

## PRİNSİP 2: İnformasiya qaynaqlarına sayğılı yanaşma

2.1 Təşkilatların, partiyaların, cəmiyyətlərin, birliklərin və hər hansı digər maraqlı qrupların rəsmi məlumatları yayılarkən mənbə mütləq göstərilməlidir. Lakin bilgi verən şəxs adının gizli saxlanması şərtini irəli sürürsə, jurnalist və

informasiya orqanı bu şərtə mütləq əməl etməlidir. İnformasiya qaynağının gizliliyi qorunmalıdır.

2.2 Qeyri-rəsmi mənbələrin məlumatları onların həqiqətə uyğunluğu və informasiya dəyəri yoxlanılmadan yayılmamalıdır. İnformasiya çapa hazırlanarkən onun mənası təhrif olunmamalıdır. Başqa mətndən və ya çıxışdan sitat gətirərkən jurnalist həmin sitatın harada başlandığını və bitdiyini dəqiq bildirməlidir. Foto-simvolların (illüstrasiya, fotomontaj və sair) dərci zamanı şəklin sənədli xarakter daşımadığı qeyd olunmalıdır. Yazıların sərlövhələri onun məzmununa uyğun gəlməlidir.

2.3. Jurnalist çalışmalıdır ki, götürdüyü müsahibəni onu verən adamın özü, yaxud da vəkil etdiyi şəxs imzalasın. Bu, mümkün olmadıqda, müsahibənin hansı şəkildə çap ediləcəyi, hətta jurnalistin özünün verdiyi sualların belə sonradan dəyişdirilib-dəyişdirilməyəcəyi müsahibə öncədən bildirilməlidir.

2.4. Jurnalistin müstəsna hal kimi digər imkanları mövcud olmadıqda, ictimai əhəmiyyət kəsb edən informasiyanın əldə edilməsi üçün xüsusi avadanlıqlardan (gizli kameralar, gizli mikrofonlar və sair gizli vasitələrdən) və ya üsullardan (“qurama” kimlik və s. ) istifadə edə bilər.

2.5. Jurnalist məlumatların və ya təsvirlərin əldə edilməsi məqsədi ilə hədələməyə, güc tətbiqinə və ya təhdidə yol verməməlidir.

**PRİNSİP 3: Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığı**

3.1. Jurnalist adamları millətinə, irqinə, cinsinə, dilinə, peşəsinə, dininə, yaşadığı və ya anadan olduğu yerinə görə pisləməməli,onlar haqqında bu qəbildən olan bilgiləri qabartmamalıdır

3.2. Jurnalist görüşdüyü, haqqında yazdığı hər bir şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatının toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalıdır.
3.3. Jurnalist vətəndaşların şəxsi həyatına aid faktları, onlar cəmiyyətin maraqlarına toxunmursa, hüquqa zidd deyilsə və ya ictimai əhəmiyyət kəsb etmirsə, özlərinin razılığı olmadan yaya bilməz.

3.4. Jurnalist və kütləvi informasiya vasitəsi buraxdığı səhvi, həmin səhvi kimin müəyyən etməsindən asılı olmayaraq, maksimum qısa müddətdə və tam həcmdə aradan qaldırmalıdır. Düzəliş zamanı aydın olmalıdır ki, əvvəl verilən məlumat tam, yoxsa konkret hansı hissədə səhvdir

3.5. Şəxsi xarakter daşıyan məktublar dərc edilərkən onların müəllifindən, göndərildiyi

şəxsdən və ya həmin şəxsin varislərindən icazə alınmalıdır.

3.6. Bədbəxt hadisələr və ya cinayət nəticəsində zərər çəkmiş şəxslərin razılığı olmadan onların adları açıqlanmamalı, şəkilləri verilməməlidir. Bu, yalnız xüsusi məqamlarda və zərərçəkənin ictimai fiqur olduğu hallarda mümkündür. Əgər cinayəti yeniyetmələr və ya uşaqlar (18 yaşı tamam olmamış şəxslər) törədibsə, bu zaman da cinayətkarın adını açıqlamaqdan və şəklini yaymaqdan çəkinmək lazımdır.

3.7. Jurnalist, cinayətdə şübhəli bilinən şəxsin təqsirsizlik prizumpsiyası hüququna hörmətlə yanaşmalı, onu təqdim edərkən onun cinayətkar kimi yox, şübhəli şəxs qismində saxlanılan şəxs kimi təqdim etməlidir.

3.8. Kütləvi informasiya vasitəsi hər hansı vətəndaşın şübhəli şəxs kimi həbs olunması, yaxud istintaqa cəlb edilməsi barədə məlumat yaymışsa və sonradan onun təqsirsizliyi sübuta yetmişsə, həmin informasiya orqanı bu barədə mütləq xəbər verməlidir.

3.9. Jurnalist uşaqların məsumluğu və inamından sui-istifadə etməməli, onların hüquqlarına hörmətlə yanaşmalı və onların fikirlərinin çatdırılması ilə bağlı xüsusi məsuliyyət nümayiş etdirməli,

valideyinlərinin və ya qanuni himayəçilərinin icazəsi olmadan uşaqlardan müsahibə götürməməyə səy göstərməlidir. Daha vacib ictimai əhəmiyyət kəsb edən maraqların mövcud olduğu hallar istisna olmaqla, jurnalist uşaqların şəxsi həyatı barədə məlumatları və ya fotoşəkilləri dərc etməməlidir. Jurnalist faciə və ya cinayət əməli nəticəsində zərər çəkmiş, yaxud belə hadisələrə cəlb edilmiş uşaqların kimliyini mütləq qorumalıdır.

3.10. Cinayət əməli törətməsi ilə bağlı şəxsə qarşı ittiham irəli sürülmüşsə, bu mövzuda məhkəmənin obyektivliyinə təsir göstərəcək reportajlar hazırlanmamalı, hazırlanan reportajlarda isə bütün tərəflərin fikirləri əks olunmalıdır. Cinayət əməllərinin qurbanları öz kimliklərinin açıqlanmasına razı olmadıqda jurnalist belə şəxslərin kimliyinə həssaslıqla yanaşmalıdır. Seksual təcavüzlə bağlı hallarda bu qaydaya xüsusi əhəmiyyət verilməlidir. Şahidlər öz kimliklərinin açıqlanmasına razı olmadıqda jurnalist, ictimai əhəmiyyət daşımırsa belə şəxslərin kimliyinə həssaslıqla yanaşmalıdır.

3.11. Jurnalist cinayət əməlləri, zorakılıq, qəddarlıq və intihar halları barədə reportajlarda belə əməllərin təşviqi və ya əsassız olaraq sensasiyalı formada təqdim olunmasından çəkinməlidir. Jurnalist zorakılığı təşviq edən, təhrik etməyə səy

göstərən və ya belə hallara əl atan şəxslər tərəfindən vasitə kimi istifadə olunmamalı, əksinə, öz reportajlarında belə şəxslərin fəaliyyəti barədə müvafiq məhdudiyyətləri tətbiq etməli və yalnız müvafiq informasiyanın ictimai əhəmiyyət kəsb etməsi şübhə doğurmadıqda bu barədə reportajlar hazırlamalıdır.

3.12.Jurnalist və redaksiya terror hadisəsini şişirdən, terrorçuların məqsədinə xidmət edə biləcək qorxu effekti yaradan, terroru təblig edən və terror hərəkətinə bəraət qazandıran reportajlar verməməlidir.

## *PRİNSİP 4: Gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin müdafiəsi*

*4.1. Jurnalist gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinə hörmət etməli, cinsi ayrı-seçkilik yaradan və ya cinsi nifrətə çağıran üslubdan uzaq durmalı, cinsiyyətçi ifadələr işlətməməli, xəbərin məzmunu bilavasitə tələb etmirsə, şəxsin cinsi mənsubiyyətini qabartmamalıdır.*

*4.2. Jurnalist gender stereotiplərini təbliğ etməməli, mediada qadınların və kişilərin gender stereotiplərindən azad obrazını təsvir etməlidir.*

*4.3. Jurnalist gender-əsaslı zorakılıq hallarının mediada işıqlandırılmasına həssaslıqla yanaşmalı, gender-əsaslı zorakılığı təşviq etməməli və cəmiyyətdə onun neqativ nəticələrinə dair məlumatlılığı artırmalıdır.*

*4.4. Jurnalist çalışdığı və ya əməkdaşlıq etdiyi media qurumunda cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə məruz qalmamalı, kişi və qadın jurnalistlərə bərabər hüquqlar və imkanlar təmin olunmalıdır.*

## PRİNSİP 5: Jurnalistin özünün və çalışdığı orqanının reputasiyasının qorunması

5.1. Jurnalist cəmiyyəti dəqiq informasiya ilə təmin etmək qabiliyyətinə mənfi təsir göstərə biləcək hər hansı şəxsi, siyasi və ya maliyyə xarakterli həvəsləndirmələr qəbul etməməli, qiymətli hədiyyə almamalı, yaxud özünə pulsuz xidmət göstərilməsinə şərait yaratmamalıdır. Jurnalist redaksiya sənədindən və informasiyaya çıxış imkanlarından, habelə, biznes fəaliyyəti və maliyyə bazarları barədə məlumatlardan şəxsi mənfəət əldə etmək məqsədi ilə istifadə etməməlidir. Jurnalist birbaşa şəxsi marağının olduğu məsələlər barədə reportajlar hazırlamaqdan çəkinməli və belə maraqları olduqda həmin maraqları öz müvafiq reportajında bildirməlidir.

5.2 Jurnalist redaksiyanın verdiyi qərarlarla media qurumunun kommersiya siyasətini bir-birindən fərqləndirməli və bu barədə dəqiq təsəvvürlərə malik olmalıdır. Jurnalist redaksiyada çalışdığı vaxtda onun və ya işlədiyi informasiya orqanının reputasiyasına gölgə salan, obyektivliyinə inamı azaldan hər hansı başqa işlə məşğul olmaqdan, siyasi təşkilatlara üzvlükdən çəkinməli, siyasi və ya kommersiya xarakterli təzyiqlərə məruz qalmamalı və müstəqil olmalıdır.

5.3. Jurnalist redaksiya mətnləri, marketinq, reklamlar və ya sponsorluq vasitəsi ilə dərc olunan materialları bir-birindən dəqiqliklə fərqləndirə bilməlidir. Redaksiya tapşırığı qanunlara və peşə əxlaqına zidd olduqda, jurnalistin həmin tapşırıqdan imtina etmək hüququ var. Redaktə zamanı jurnalistin fikirləri təhrif olunubsa, o, həmin materialın öz imzası ilə verilməsindən imtina edə bilər.

5.4. Redaksiya sirri Azərbaycan Respublikasının qanunlarının və Peşə Davranışı Qaydalarının pozulması ilə bağlı deyilsə, jurnalist həmin sirri qorumağa borcludur.

5.5. Jurnalist hazırladığı materialı işlədiyi kütləvi informasiya vasitəsinin rəhbərliyi ilə razılaşdırmadan başqalarına təklif edə bilməz.

5.6. Plagiat yolverilməz hərəkətdir. Bütün hallarda ədəbi oğurluğun hər hansı forması qəbuledilməzdir. Jurnalist müəlliflik hüquqlarına və müəlliflik hüquqlarına dair müqavilələrin şərtlərinə hörmətlə yanaşmalıdır. Jurnalist media vasitələrindən götürməklə istifadə etdiyi bütöv materiallar və ya qısa çıxarışların mənbələrini hər bir halda göstərməlidir. Jurnalist digər media vasitələrində dərc olunmuş bütöv materiallardan və ya geniş həcmli çıxarışlardan təkrarən istifadə etdikdə, mütləq müvafiq müəllif və media vasitələrini xəbərdar etməli və həmin mənbələri göstərməlidir.

5.7. Jurnalist yazılarında vulqar ifadələrin, jurqonların işlədilməsindən çəkinməli, Azərbaycan dilinin zənginləşməsinə öz töhfəsini verməklə yanaşı, onun təmizliyinin qorunub saxlanmasına da çalışmalıdır.

5.8. Jurnalist zərurət olmadıqca informasiya mənbələrinə pul ödəməməlidir. Lakin ictimaiyyətin əldə etmək hüququnun olduğu informasiyanı toplayarkən ödənişlərə zərurət duyulduğu hallarda belə ödənişlərin həyata keçirilməsi müvafiq reportajda göstərilməlidir.

5.9. Müxtəlif media vasitələri və media sahəsindəki peşəkarlar arasındakı münasibətlər medianın dürüstlüyünü qoruyub saxlamaq baxımından

qarşılıqlı hörmət və vicdanlı rəqabətlə şərtlənməlidir.

5.10. İctimaiyyətin media vasitələrinin sahibləri və belə vasitələrə nəzarət edənlər barədə məlumatlandırılmaq hüququ vardır.

5.11. Jurnalist hücuma və ya qərəzli olaraq tənqidə məruz qalan həmkarlarını dəstəkləməlidir. Bununla yanaşı, peşəkar həmrəylikdən informasiyanın gizlədilməsi və ya təhrif edilməsi üçün bəhanə kimi istifadə edilməməlidir.

Bu qaydaların pozuntusu yalnız o halda əsaslandırıla bilər ki, nəşr olunmuş müvafiq material ictimaiyyətin maraqlarına xidmət etsin.

Bu qaydaların ifadə etdiyi maraqlar nəzərə alınmaqla, "ictimai əhəmiyyət" anlayışı "ictimaiyyət üçün maraqlı" olan informasiya ilə qarışdırılmamalıdır.

Nəşr olunmuş materiallar ictimai əhəmiyyət kriteriyasına yalnız aşağıdakı hallarda cavab verir:

- sağlamlıq və təhlükəsizliyin qorunması;
- ictimaiyyətin ağır cinayətlərdən və vəzifədən sui-istifadə hallarından müdafiə olunması;

- ictimaiyyətin əhəmiyyətli dərəcədə yanlış istiqamətləndirilməsi təhlükəsinin aradan qaldırılması.

*Sənəd 2003-cü il martın 15-də Azərbaycan jurnalistlərinin birinci qurultayında qəbul edilib. Sənədin Avropa Şurasının "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi çərçivəsində Princip 4 əlavə olunaraq gender bərabərliyi perspektivindən yenilənmiş versiyası Azərbaycan Mətbuat Şurası tərəfindən 1 noyabr 2018-ci il tarixində təsdiq olunmuşdur.*

# CODE OF PROFESSIONAL ETHICS FOR JOURNALISTS OF AZERBAIJAN

## PRİNCİPLE 1: To serve the truth, accuracy and objectiveness

1.1 The primary goal of journalism is dissemination of truth; and objectiveness is a main professional criteria.

1.2 Journalists shall study and convey the viewpoint held by the target of criticism in their articles. If this is not possible and if the target of criticism requires so, the journalist shall create due conditions for such persons to communicate their views. The principle of pluralism shall be upheld.

1.3 Opinions in articles shall be expressed in a way that readers could differentiate them from news and facts; and attribute such opinions to the journalist.

## PRİNCİPLE 2: Respectful approach towards sources of information

2.1 The source must always be indicated while disseminating official information from organizations, parties, societies, unions and other interest groups. However, if the person who

provides the information prefers to remain anonymous, journalists or media entities must adhere to his/her privacy conditions. The confidentiality of the source of information shall be protected.

2.2 The information provided by unofficial sources shall be checked for its authenticity and informative value before being disseminated. The content of the information shall not be distorted while being prepared for print. When quoting from another article or speech, journalists should note precise starting and ending points of the quotation. When printing photo-symbols (illustration, photo-editing) together with texts, it should be noted that such images do not have documentary importance. Titles of articles should correspond to their content.

2.3 Journalist should try to have his/her interview signed by interviewees or their authorized agents. If this is not possible, interviewees should be notified of the way in which the interview will be published and whether the questions asked by the journalist will be modified.

2.4. If there are no other methods available, journalists may use special equipment (hidden cameras, hidden microphones or other hidden tools) or methods (“fake” IDs and etc) as an

exception for obtaining information that has public importance.

2.5. Journalists shall not resort to intimidation, application of force or threats in order to obtain information or images.

**PRİNCİPLE 3: Protection of honour and dignity, inviolability of personal life**

3.1 Journalists shall not condemn people for their nationality, race, sex, language, profession, religion, and place of birth or residence and shall not highlight such data.

3.2 Journalists shall respect the honour, dignity, and inviolability of personal life of the person he/she meets with and writes about.

3.3 Journalists may not disseminate facts about citizens' personal lives without their consent, unless dissemination of such information does not violate the rights of the society, is lawful, does not contradict social interest and is of public unimportance.

3.4 Journalists and mass media entities must correct their errors wholly and as soon as possible, regardless of the person who identified the error.

The correction should indicate whether the related article was erroneous in whole or in part.

3.5 When publishing personal letters, the author, the person to whom the letter is addressed to, or their heirs, should be asked for permission.

3.6 Names or images of victims who suffered from accidents or crime must not be disclosed without their consent. This is possible under special conditions and if the victim is a public figure. If the crime was committed by teenagers or children (persons below 18 years of age), journalists should refrain from disseminating the names or pictures of the criminals.

3.7. Journalists should respect the right to presumption of innocence of persons who are suspected of committing crimes and should introduce such persons not as criminals, but as persons who have been detained for being suspected of committing crimes.

3.8. If a mass media entity disseminated information on detention or indictment of a citizen as a suspect and if his/her innocence was later proven, the media entity must inform the public in this regard.

3.9. Journalists shall not take advantage of children's innocence and trust; shall respect their rights and demonstrate a special responsibility in communicating their views; and shall seek to avoid interviewing children without the consent of their parents or lawful guardians. Journalist shall not publish information or photographs about private life of a child unless there is an over-riding public interest. Journalist shall protect the identity of children involved in or affected by tragedy or criminal activity.

3.10. If a person is charged with committing of a crime, journalists shall not prepare reports which could undermine the objectiveness of the court in this issue and opinions from all involved parties should be reflected in such reports. If victims of a crime have not given their consent to be identified, journalists shall treat the identities of such individuals with sensitivity. This rule is especially important in cases involving sexual assault. If witnesses have not consented to being identified and if their identification does not have any public importance, journalists shall treat their identity with sensitivity.

3.11 Journalists shall refrain from glorifying or unnecessarily sensational reporting about crime, violence, brutality and suicide. Journalists shall be careful not to be used as a means by those who

promote, incite or use violence; instead, journalists shall report on their activities with due constraint and only if there is a clear public interest.

3.12. Journalists or editorials should not prepare reports that exaggerate terror acts; reports that serve the interests of terrorists; reports that create fear or those which promote or justify terror acts.

## *PRINCIPLE 4: Protection of the principle of gender equality and non-discrimination*

*4.1. Journalists shall respect the principle of gender equality and non-discrimination, avoid language creating sexual discrimination or inciting sexist hatred, should not use sexist phrases; they should not emphasize sexual belonging of a person, if the content of news does not directly require it.*

*4.2. Journalists should not propagate gender stereotyping, they shall described free of gender stereotypes image of men and women in the media.*

*4.3. Journalists shall be sensitive to media coverage of gender-based violence cases; they should not promote gender-based violence and*

*shall raise awareness on its negative effects in society.*

*4.4. Journalist should not be discriminated based on his/her sex in the media outlet, where he/she works or cooperates; equal rights and opportunities shall be provided for male and female journalists.*

## PRİNCİPLE 5: Protection of journalists' own reputation and of the organization he/she works for

5.1. Journalists shall not accept any personal, political or financial inducements that may impact their ability to provide the public with accurate information; shall not receive expensive gifts; and shall not induce others to serve them for free. Journalists shall not use his/her access to editorial documents and information as a means of obtaining personal gain, especially in respect to information about business performance and financial markets. Journalist shall avoid covering stories where he/she has a direct personal interest, or should at least declare such personal interests where it is relevant.

5.2. Journalists shall maintain a clear distinction between editorial decision-making and commercial

policy of the media entity. Journalists shall refrain from engaging in activities that can undermine his own reputation or that of the media entity that he/she works for or acts that could weaken the confidence in its objectiveness, from membership to political organizations; and shall not be subject to political or commercial pressures and be independent.

5.3. Journalists shall maintain a clear distinction between editorial content and marketing, advertisements or sponsored materials. Journalists shall have the right to refuse assignments, if such assignments are against the laws and rules of professional conduct. If a journalist's opinions have been distorted during the editorial process, the journalist has the right to decline from having the article published under his/her signature.

5.4. If an editorial secret is not related with violation of the legislation of the Republic of Azerbaijan and this Code, journalists are obliged to protect such secrets.

5.5. Journalists may not offer the material that he/she has prepared to other parties without prior consent from the management of the media entity that he/she works for.

5.6. Plagiarism is an intolerable act. Any form of plagiarism under all circumstances is unacceptable. Journalists shall respect copyright and the terms of copyright agreements. Journalists shall always acknowledge the source of complete materials or short extracts from other media which may be used without express permission. Journalist shall only reproduce longer extracts or complete materials from other media with prior permission and with acknowledgement of the author and media.

5.7. Journalists must avoid the use of vulgar expressions, jargons and should try to contribute to enrich and protect the purity of the Azerbaijani language.

5.8. Journalists shall not pay sources for information, but where payment is considered necessary in order to obtain information that the public has a right to know, it shall be made clear in the relevant report that payments have been made.

5.9. Relationships between different media outlets and between media professionals should be characterised by mutual respect and fair competition in order to preserve the integrity of the media.

5.10. The public has the right to be informed about who owns and controls media outlets.

5.11. Journalists shall support media colleagues when they are unfairly attacked or criticised; however, professional solidarity should not be an excuse for suppressing or distorting information.

Infringement of the terms of this Code may only be justified where it can be demonstrated that the relevant publication serves the best interests of the public.

For the purposes of this Code, information ‘of public interest’ should not be confused with information which is ‘interesting to the public’.

A publication is in the public interest only if:

- It protects health, safety and security;
- It helps the prevention and disclosure of serious crimes and abuse of power;
- It prevents the public from the danger of being seriously misled.

*The document was adopted in the First Congress of Azerbaijani journalists on 15 March 2003. Its revised version from a gender equality perspective*

*introducing the Principle 4 developed within the Council of Europe Project "Gender equality and media freedom in Azerbaijan" was approved by the Azerbaijan Press Council on 1 November 2018.*

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Onun 47 üzv dövlətindən 28-i eyni zamanda Avropa İttifaqının üzvüdür. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalayıblar. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə həyata keçirilməsinə nəzarət edir.

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE